AZƏRBAYCAN www.azerbaijan-news.az

# Dövlət Sərhəd Xidmətinin "Tufan" tipli sərhəd gözətçi gəmisi Mahaçqalaya dostluq səfəri edib

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq qarşılıqlı faydalı əməkdaşlıq davam etdirilir.






DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, bu tədbirlər çərçivəsində sentyabrın 23-dən 26-dək Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisi Rusiya Federasiyasının Mahaçqala şəhərinə dostluq səfəri edib.

Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Sərhəd Xidmətinin rəsmiləri tərəfindən təntənəli mərasimlə qarşılanıb, tərəflərin sərhəd gözətçi gəmiləri qarşılıqlı ziyarət edilib.

Tərəflər arasında görüş keçirilib, ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, qanunsuz fəaliyyətlərə qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsinin davam etdirilməsi məsələləri müzakirə olunub.

Səfər çərçivəsində tərəflərin qüvvə və vasitələrinin iştirakı ilə Xəzər dənizinin şimal hissəsində "Xəzər dənizi akvatoriyasının birgə mühafizəsi" mövzusunda sərhəd təlimi keçirilib. Təlimdə dənizdə qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə tərəflərin məlumatlandırılması, birgə sərhəd axtarışının keçirilməsi, tabe olmayan şərti sərhəd pozucusunun saxlanılması məqsədilə xəbərdarlıq atışının icra edilməsi, baxış qruplarının gəmiyə çıxarılması və baxışın keçirilməsi kimi epizodlar müvəffəqiyyətlə icra edilib.

Keçirilmiş təlimdə Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisinin heyəti tərəfindən qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, sərhədçilər tərəfindən yüksək döyüş hazırlığı və peşəkarlıq göstərilib, müxtəlif şəraitdə verilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmə bacarığı nümayiş etdirilib.

Təlimin nəticələri ekspertlər tərəfindən təhlil edilib və qarşıya qoyulmuş vəzifələrin tam həcmdə yerinə yetirilməsindən razılıq ifadə olunub.

Səfər müddətində Azərbaycan Respublikası və Rusiya Federasiyasının Sahil Mühafizəsi nümayəndələri arasında futbol üzrə yoldaşlıq oyunu keçirilib, Azərbaycan sərhədçiləri üçün Mahaçqala şəhərinin tarixi yerlərinə gəzinti təşkil olunub.

***"Azərbaycan"***